# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 24 sentyabr tarixli 152 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 54-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 yanvar tarixli 1730 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 24 sentyabr tarixli 152 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 9, maddə 560; 2000, N 8 (III kitab), maddə 646, N 10, maddə 765; 2001, N 1, maddə 70, N 7, maddə 512; 2002, N 11, maddə 675; 2005, N 1, maddə 49, N 6, maddələr 555, 558; 2006, N 4, maddə 370; 2007, N 12, maddə 1336; 2008, N 6, maddə 586; 2010, N 6, maddə 566) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı hissənin dördüncü və altıncı abzaslarında "balıq ovlayan" sözləri "balıq və digər su bioresurslarının ovunu həyata keçirən" sözləri ilə əvəz edilsin.

2. 10-cu hissənin ikinci abzasında "balıq ovlayanlara" sözləri "balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərə" sözləri ilə əvəz edilsin.

3. 18-ci hissədə "Balıq ovlayanlara" sözləri "Balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərə" sözləri ilə əvəz edilsin.

4. 46-cı hissənin beşinci abzasında "balıq ovlayanlar" sözləri "balıq və digər su bioresurslarının ovunu həyata keçirənlər" sözləri ilə, altıncı abzasında "balıq ovlayanların" sözləri "balıq və digər su bioresurslarının ovunu həyata keçirənlərin" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 26 aprel 2016-cı il
№ 172